**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun 2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Bayramov Nürəddin Heydar oğlunun 29 dekabr 2009-cu il tarixdə müvafiq seçki komissiyasına daxil olmuş 247 saylı müraciətinə baxılması barədə**

**R Ə Y İ**

Bakı şəhəri 28 dekabr 2009-cu il, saat 12.00

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 84 saylı Füzulı seçki dairəsi üzrə Qazaxlar bələdiyyəsinə namizəd Bayramov Nürəddin Heydar oğlu 2009-cu il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, adıçəkilən seçki dairəsinin ərazisində yerləşən 1 saylı məntəqə seçki komissiyasında seçicilərin azad surətdə səs verməsinə maneə yaradıldığını, həmin dairə seçki komissiyasının sədri Yusif Hüseynov tərəfindən sözügedən məntəqə seçki komissiyasının sədri və katibinə təzyiq edilərək məntəqə seçki komissiyası protokollarının saxtalaşdırıldığını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 112, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat" a uyğun tərtib edildiyindən araşdırmaya qəbul edilmişdir.

Mərkəzi Seçki Komissiyası vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürərək, müraciətinin qanunla müəyyən olunmuş müddətdə, tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırmışdır.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır. Belə ki, dairə seçki komissiyasının sədri Yusif Hüseynovun və həmin dairə seçki komissiyasının ərazisində yerləşən 1 saylı seçki məntəqəsi məntəqə seçki komissiyası üzvlərinin və müxtəlif maraqları təmsil edən müşahidəçilərin verdiyi izahatlara əsasən səsvermə günü seçicilərin səsvermə prosesində iştirakına heç bir maneə olmamışdır. Səsvermə azad və şəffaf keçmişdir. Əldə olunan məlumata görə, 1 saylı seçki məntəqəsinin seçicilər siyahısında olan 328 nəfərdən 89 nəfəri səsvermədə iştirak etmişdir.

1 saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının sədri Sücaət Zeynalova və komissiya katibi Məhəmməd Novruzov izahatlarında ğöstərmişlər ki, 23 dekabrda seçki məntəqəsinə gələn seçicilərə öz seçki hüquqlarının reallaşdırılması üçün heç bir təzyiq göstərilməmişdir. Bu məsələ ilə əlaqədar məntəqə seçki komissiyasına heç bir şifahi və ya yazılı müraciət daxil omamamışdır.

Səsvermə günü həmin seçki məntəqəsində müşahidəçi kimi qeydiyyatdan keçmiş Abbasov Nəriman Hüsən oğlu, Nəcəfov Müzəffər Məmmədhəsən oğlu, Qəhrəmanov Yunis Çərkəz oğlu, Yolçuyev Mustafa Qasım oğlu və Faiq Abbasov, həmçinin seçilməmiş bələdiyyə üzvlüyünə namizədlər- Alışov Alim Talış oğlu və Qəhrəmanova Şəfiqə Çərkəz qızı izahatlarında bildirmişlər ki, səsvermə prosesi başa çatdıqdan sonra onların iştirakı ilə seçki qutusu açılmış, səslər hesablanmış, səsvermənin nəticələri haqqında protokol tərtib olunmuş, imzalanaraq surətinin bir nüsxəsi arzu edənlərə verilmiş, sonra protokol digər seçki sənədləri ilə birlikdə dairə seçki komissiyasına aparılmışdır.

84 saylı Füzulı seçki dairəsi dairə seçki komissiyasının sədri və üzvləri, həmin prosesin digər iştirakçıları izahatlarında 1 saylı məntəqə seçki komissiyası protokolunun dairə seçki komissiyasında doldurulması barədə şikayətçinin iddiasını təkzib edir. Onların sözlərinə görə, seçki qanunvericiliyində müəyyən olunmuş müddətdə və qaydada daxil olmuş səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının protokollarındakı məlumatlar müşahidə altında səsvermənin nəticələri haqqında dairə seçki komissiyasının protokoluna yazılmış və son məlumatlar seçki subyektlərinə rəsmən elan olunmuş, protokolun təsdiqlənmiş surətiləri onu almaq arzusunda olan maraqlı şəxslərə verilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın” 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m :**

1. Vətəndaş Bayramov Nürəddin Heydar oğlunun 29 dekabr 2009-cu il tarixli 247 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.
2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilsin) və surəti şikayətçiyə göndərilsin.

Azərbaycan Respublikası Mərkəzi
Seçki Komissiyası nəzdində
ekspert qrupunun üzvü Rafiq Abbasov